# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

19 aprel 2018-ci il
Cümə axşamı

№ 15 (3379)

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ANDİÇMƏ MƏRASİMİ OLUB

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 18-də Milli Məclisdə andiçmə mərasimi keçirilib.*

*Andiçmə mərasimində Azərbaycanın dövlət rəsmiləri, hökumətin üzvləri, Milli Məclisin deputatları və Prezidentin ailə üzvləri iştirak ediblər.*

*Prezident İlham Əliyevi müşayiət edən fəxri kortej Azərbaycan Respublikası Prezidentinin andiçmə mərasiminin keçirildiyi Milli Məclisə yola düşdü.*

*Ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi açıq elan olundu.*

*Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi hərarətlə qarşıladılar.*

*Silahlı Qüvvələrin əsgərləri Azərbaycan Respublikasının dövlət bayrağını və Azərbaycan Prezidentinin ştandartını (bayrağını) təntənəli marşın sədaları altında səhnəyə gətirdilər.*

*Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və Konstitusiya Məhkəməsinin hakimləri səhnəyə dəvət olundular.*

*Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxış edərək dedi:*

*-Hörmətli xanımlar və cənablar.*

*Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2018-ci il 17 aprel tarixli qərarı ilə Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunlarına dair Mərkəzi Seçki Komissiyasının nəticələrini təsdiq edərək, cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti elan etmişdir.*



*Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə andiçməyə dəvət olundu.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əlini Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq and içdi:*

*-Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!*

*Azərbaycan Respublikasının dövlət himni səsləndi.*

*Sonra Prezident müqəddəs Qurani-Şərifə əl basaraq and içdi:*

*-Əlimi Qurani-Şərifə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daim uca tutacağam.*

*Prezident İlham Əliyev təzim edərək, Azərbaycanın dövlət bayrağını öpdü.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində nitq söylədi.*

*Bununla da andiçmə mərasimi başa çatdı.*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də andiçmə mərasimindən sonra ailə üzvləri ilə birlikdə Fəxri xiyabana gəlib müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edərək xatirəsini ehtiramla yad edib.

Dövlətimizin başçısı ulu öndərin məzarı önünə əklil qoydu, onun ruhu qarşısında baş əydi.

Sonra Prezident İlham Əliyev və ailə üzvləri görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət etdilər və üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin məzarlarının üstünə də gül dəstələri düzüldü.

## ŞƏHİDLƏRİN XATİRƏSİNƏ EHTİRAM

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də ailə üzvləri ilə birlikdə xalqımızın müqəddəs and yeri olan Şəhidlər xiyabanını ziyarət edib.

Dövlətimizin başçısı Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad etdi, "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Prezident İlham Əliyev və ailə üzvləri paytaxt Bakının mənzərəsini seyr etdilər.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÖVLƏT BAYRAĞI MEYDANINDA OLUB

Aprelin 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri Dövlət Bayrağı Meydanında olublar.

Fəxri qarovul dəstəsinin rəisi Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı əsgərləri salamladı.

Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Azərbaycan Respublikası Prezidentinin, Silahlı Qüvvələrin Ali Baş Komandanının şərəfinə yaylım atəşi açıldı.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlətimizin başçısının qarşısından keçdi.

Sonda xatirə şəkli çəkdirildi.

## R.Ə.MEHDİYEVİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

### *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlətçiliyin möhkəmləndirilməsində səmərəli fəaliyyətinə və elmin inkişafında böyük xidmətlərinə görə Ramiz Ənvər oğlu Mehdiyev "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 16 aprel 2018-ci il*

## BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA GƏNC İXTİRAÇILARLA GÖRÜŞÜB

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva gənc azərbaycanlı ixtiraçılar - dünyada şöhrət qazanmış Reynerci (Rainergy) startapının təsisçiləri Reyhan Camalova və Zəhra Qasımzadə ilə görüşüb.

Görüşdə 15 yaşlı ixtiraçılar öz layihələri və gələcək planları barədə geniş məlumat verdilər. Qeyd edildi ki, Reynerci yağış sularını elektrik enerjisinə çevirən qurğudur. Onların icad etdikləri bu qurğu gələcəkdə alternativ enerji mənbələrinin inkişafında geniş imkanlar aça bilər.

Xatırladaq ki, "İstək" Liseyinin 9-cu sinif şagirdləri Reyhan və Zəhra tərəfindən birgə ixtira edilmiş Reynerci qurğusu "Qlobal Sahibkarlıq Sammiti 2017"də geniş marağa səbəb olub, ABŞ Prezidentinin müşaviri İvanka Tramp tərəfindən xüsusi qeyd edilib.

Birinci vitse-prezident Mehriban Əliyeva bildirdi ki, Azərbaycanda bu cür gənc istedadların olması onu hədsiz dərəcədə ruhlandırır və sevindirir. O, ölkəmizdə bu cür gənc nəslin formalaşması ilə fəxr etdiyini vurğulayaraq, dövlət tərəfindən onların layihəsinə lazımi dəstəyin göstəriləcəyini, ümumiyyətlə, gənc istedadlara və kiçik startaplara daim diqqət yetiriləcəyini qeyd etdi.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevi yubileyi münasibətilə təbrik edib, onu Azərbaycan Respublikasında dövlətçiliyin möhkəmləndirilməsində səmərəli fəaliyyətinə və elmin inkişafında böyük xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edib.

Ramiz Mehdiyev bu təltifə və onun fəaliyyətinə verdiyi yüksək qiymətə görə dövlətimizin başçısına minnətdarlığını bildirib. Administrasiya rəhbəri ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş müasir Azərbaycan dövlətçiliyinin daha da möhkəmləndirilməsində Prezident İlham Əliyevin müstəsna xidmətlərini vurğulayıb və qeyd edib ki, məhz dövlət başçısının rəhbərliyi altında Azərbaycanda bütün sahələrdə çox yüksək nailiyyətlər əldə olunub. O, bir daha dövlət başçısına minnətdarlıq edib.

Çin Xalq Respublikasının Sədri Si Cinpin, Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Xəlifə bin Zayed Al Nəhyan, Latviya Respublikasının Prezidenti Raymonds Veyonis, Bosniya və Herseqovinanın Serb Respublikasının Prezidenti Milorad Dodik, Vyetnam Sosialist Respublikasının Prezidenti Çan Day Kuanq və digər dövlət və hökumət başçıları, Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik ediblər.

## KONSTİTUSİYA MƏHKƏMƏSİ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ SEÇKİLƏRİNİN YEKUNLARINI ELAN EDİB

Aprelin 17-də Fərhad Abdullayevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun iclası keçirilib.

İclas Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin rəsmən elan olunmasına həsr edilib.

Məhkəmə araşdırmaları bitdikdən sonra Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin təsdiq və rəsmən elan olunmasına dair qərarı oxuyub.

Salona toplaşanlar qərarı alqışlarla qarşılayıblar.

Sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

***Dövlətimizin başçısı aprelin 18-də Azərbaycan Respublikası Nazirlər Kabineti üzvlərinin səlahiyyətlərinin icra edilməsi haqqında sərəncam imzalayıb.***

# ELƏ BİR ZİRVƏ Kİ, ORDAN VƏTƏN GÖRÜNÜR

**90-cı illərin əvvəlində ölkədə yaranmış özbaşınalıq, anarxiya ordudakı intizamsızlıq xalqımızı hər addımbaşı məğlubiyyətlə üzləşdirirdi. Hər gün cəbhədən acı xəbərlər gəlirdi. Əsgər analarının qulağı səsdə, gözləri yolda idi.**

**Ulu öndər Heydər Əliyevin Azərbaycana yenidən rəhbərlik etməsi ümidləri artırdı.**

Düz 26 il əvvəl, yayı da qış nəfəsli o günlərdə yaranan Daxili Qoşunların sıralarına Vətən qeyrətli, yurd istəkli oğullar gəldilər. Onları birləşdirən bir amal vardı-yurdu yağılardan qorumaq!

İlk dəfə 1992-ci il martın 12-də DİN Daxili Qoşunların Biləcəri qəsəbəsi, Sumqayıt və Gəncə şəhərlərindəki hərbi hissələrinin şəxsi heyətindən ibarət əlahiddə kontingent Ağdam rayonunun Canyataq və Gülyataq kəndlərinə müqəddəs itkinin dalınca gedirdilər – yadlarda qalan Vətənin bir parçasının. Torpağın sinəsini beşik bilən bu oğullar arasında bir əsgər də vardı – **çavuş Hatəmxan Babayev**.

1972-ci il avqustun 9-da doğulub. 1987-ci ildə Keçili kənd natamam orta məktəbini, 1990-cı ildə rayondakı texniki peşə məktəbini bitirib.

Dizləri o torpaqdan qüvvət almışdı, güləş yarışlarında layiqli yerlər tutmuşdu. Yaddaşımızda 20 Yanvar səhifəsi açan 1990-cı ildə hərbi xidmətə çağırılmışdı. Azərbaycan Polisinin ilk uğurlu əməliyyatlarından olan Çaykəndin erməni quldurlardan təmizlənməsində fəal iştirak etmişdi. Sonra Daxili Qoşunların Sumqayıt hərbi hissəsində xidmət edirdi. Əlahiddə kontingentin tərkibində olan Hatəmxan Babayev kəşfiyyat bölüyündəydi. Bütün günü səngərlərdə keşik çəkir, gecələr isə düşmən nəzarətində olan ərazilərə keçir, tutduqları mövqeləri öyrənməyə çalışırdı. Nə qədər acınacaqlı olsa da düşmənlərimiz daha yaxşı silahlanıb, öz mövqelərində möhkəmlənmişdilər. Buna baxmayaraq, düşmən döyüşçülərimizin qüdrətinə bələd olmuşdu, cəsarətini görmüşdü.

Martın 31-də növbəti qanlı döyüş oldu. Papravənd kəndinə hücuma keçən düşmən böyük qüvvə ilə azsaylı hərbçilərimizlə bacara bilmirdi, itkilər verirdi. Ancaq bizim üçün də itkisiz başa gəlmədi. Həmin gün 20 yaşlı Hatəmxan Babayev şəhid oldu.

Xocalı faciəsinin yarası hələ qaysaq bağlamamışdı. Bir tərəfdən də ölkədəki hakimiyyətsizlik, yiyəsizlik xalqa bir işıq ucu gələn yerləri kip-kip örtmüşdü. Torpaq qeyrəti çəkən mərd oğulları vahid komanda altında birləşdirən olmadığından hərə öz bildiyi yolu seçirdi. Bilə-bilə ki, bu yol şəhidlikdən keçir...

**Rafiq İsmayılov** İsmayıllı rayonunun Hacıhətəmli kəndində doğulub, böyümüş və Bakı şəhərinə gəlmişdi. Burada ali təhsil almış və daxili işlər orqanlarında işləmişdi. Neçə illərdən bəri ölkəmizi beynəlxalq yarışlarda cəsarətlə təmsil edən, 1985-92-ci illərdə respublika yığma komandasının üzvü olan beynəxalq dərəcəli idman ustası Rafiq İsmayılov da vətənin taleyinə laqeyd qala bilmədi. Bir idmançı kimi ən mötəbər turnirlərdə dövlət himnimizi səslləndirməklə kifayətlənmədi.

Daxili Qoşunların idman bölüyündə leytenant rütbəsində xidmət edirdi. Müharibə başlayanda birincilər sırasında ön cəbhəyə - Ağdamın Qaraqaya kəndinə getdi. Əlində silahla öz oğulluq borcunu yerinə yetirməkdən qürur hissi keçirirdi.

Soyuq mart gecələrinin birində mövqe tutduqları dağın ətəyindən düşmənin avtomobil karvanının önünü kəsdilər. Düşmən mövqelərimizin yerini təxmini bildiyindən qarşı dağda ehtiyat atəş nöqtəsi hazırlayıbmış. Oradan açılan snayper güllələri Rafiqin sinəsini yandırdı. Bir neçə dəqiqə sonra gözlərini əbədilik yuman R.İsmayılov Daxili Qoşunların ilk şəhidlərindən biri kimi bu gün də xatirələrdə yaşayır. Məzarı Şəhidlər Xiyabanındadır.

Hər il ölkəmizdə Rafiq İsmayılovun xatirəsinə həsr olunmuş idman turnirləri keçirilir.

**Allah bütün şəhidlərimizə rəhmət eləsin!**

*Z.Hüseynov,*
*polis serjantı*

**Aprelin 17-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində "Formula-1 Azərbaycan Qran Pri" yarışında xidmətin aparılmasına hazırlıq yoxlanılıb.**

Daxili işlər nazirinin müavini - Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədovun iştirakı ilə keçirilən tədbirdə yarış zamanı digər hüquq-mühafizə



# "FORMULA-1 AZƏRBAYCAN QRAN PRİ" YARIŞI İLƏ ƏLAQƏDAR DAXİLİ QOŞUNLARIN ŞƏXSİ HEYƏTİNİN HAZIRLIĞI YOXLANILIB

orqanları ilə birlikdə ictimai qaydanın qorunmasına və ictimai təhlükəsizliyin təmin olunmasına cəlb ediləcək hərbi qulluqçuların xidmətə hazırlığı, xüsusi vasitə, avadanlıq və rabitə vasitələri ilə təchizatı, təminat məsələlərinin həlli, eləcə də nəqliyyat vasitələrinin vəziyyəti yoxlanılıb.



Daxili işlər nazirinin müavini – Daxili Qoşunların komandanına məruzə edilib ki, yarış ərəfəsində xidməti-döyüş tapşırıqlarının və müəyyən edilmiş vəzifələrin tam həcmdə yerinə yetirilməsi üçün planlaşdırılmış hazırlıq tədbirlərinin vaxtlı-vaxtında icrası təmin olunur. İlk növbədə müvafiq plan-hesab hazırlanaraq şəxsi heyətin xidmət sahələri üzrə bölgüsü aparılmış, digər hüquq-mühafizə orqanları ilə qoşunların birgə fəaliyyətinin əlaqələndirilməsi, tədbirin təşkilatçıları, aidiyyəti dövlət qurumları ilə qarşılıqlı əlaqələrin təşkili məqsədilə baş idarəetmə mərkəzi yaradılmışdır. Yarışların təşkil olunacağı ərazi və obyektlərə baxış keçirilərək xidmətin təşkili baxımından təhlil olunmuş, aidiyyəti üzrə komandir heyəti xidmətaparma yerləri ilə əyani tanış edilmişdir. Xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunan şəxsi heyətə tədbirin əhəmiyyəti, qanunçuluq, vətəndaşların hüququ və azadlıqlarının qorunması prinsipləri izah olunmuş, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşılması tələb olunmuşdur. Həmçinin, şəxsi heyətin daşınmasında nəqliyyat vasitələrinin sazlığına xüsusi diqqətin yetirilməsi və düzgün istismarının təşkilinə önəm verilməsi qeyd edilmişdir.

Bildirilib ki, yarış zamanı xüsusi icazəsi olmayan şəxslərin buraxılmasının və avtomaşınların daxil olmasının, eyni zamanda, baş verə biləcək hər hansı bir fövqəladə halın qarşısının alınması ilə əlaqədar müəyyən edilmiş xüsusi vəzifələr peşəkarlıqla yerinə yetiriləcəkdir.

Qeyd olunub ki, hazırlıq mərhələsində həvalə edilən obyektlərin mühafizəsi, nəzarət-buraxılış məntəqələrində buraxılış rejiminin təmin olunması üzrə xüsusi məşğələlər keçirilir, xidmətə cəlb olunacaq qadın hərbi qulluqçuların da müvafiq məşğələlərdə iştirakı təmin edilib.

Sonra xüsusi təyinatlı bölmələrin, perimetr boyu xidmətin aparılmasına cəlb olunacaq şəxsi heyətin, o cümlədən qadın hərbi qulluqçuların xüsusi geyim formalarına və hərtərəfli təminatına, xüsusi vasitə və avadanlıqlarla, rabitə vasitələrilə təchizatına, nəqliyyat vasitələrinə baxış keçirilib.

Şəxsi heyətin hazırlığını yüksək qiymətləndirən general-leytenant Ş.Məmmədov "Formula-1 Azərbaycan Qran Pri" yarışı ilə bağlı qarşıya qoyulmuş tapşırıqların icrasına məsuliyyətlə yanaşılmasının, nəzərdə tutulmuş tədbirlərin vaxtında və tam həcmdə həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Daxili işlər nazirinin müavini - Daxili Qoşunların komandanı xidmətin aparılması ilə əlaqədar konkret tapşırıqlarını verərək, şəxsi heyətə bu məsuliyyətli işdə uğurlar arzulayıb, qarşıya qoyulmuş tapşırıqların yüksək səviyyədə yerinə yetiriləcəyinə əminliyini bildirib.

Xüsusi olaraq diqqətə çatdırıb ki, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları mötəbər idman yarışı ilə əlaqədar etimadı doğruldaraq nümunəvi nizam-intizamı, üzərinə düşən vəzifələri peşəkarcasına yerinə yetirməsi ilə dövlətçiliyə və andına sadiq olmasını bir daha nümayiş etdirəcəkdir.

*Rəşad Sarıyev,*
*polkovnik-leytenant*

***Əzizim, Vətən yaxşı,***
***Geyməyə kətan yaxşı.***
***Gəzməyə qərib ölkə,***
***Ölməyə Vətən yaxşı...***

Bu el bayatısını bir az impravizə etmək, XXI əsrin ruhuna uyğunlaşdırmaq istədim. Çox əlləşib-vuruşdum və sonunda gördüm ki, məndə impravizə alınmır. Bəlkə də mühafizəkarlığım buna mane olur. Məncə, zamanında kimsə tərəfindən yaradılan və illər keçəndən sonra xalqın deyimi-duyumu kimi yaddaşlara hopan dəcəyimizi xatırladır...

Sözü fikrə deyil söyüşə çevirib uzaqdan onu kəsək kimi hara, kimə gəldi tolazlamağın adı düşmən dəyirmanına su tökməkdir. Görəsən, onlar nə etdiklərini, nə üçün etdiklərini bilirlərmi? Bəli, bilirlər. Bilirlər ki, etdikləri özgələr üçündür. Onsuz da özgələrin sifarişini yerinə yetirib, çaldıqları havaya oynayırlar. İnsanlardan incimək, küsmək olar. Bəs, Vətəndən üz döndərmək necə, olarmı? Olmaz!

Gözlərinizi və yaxşı baxın...

Xatırlamağınız üçün deyim ki, "Ərəb baharları"nı, rəngli inqilabları məhz sizin kimilərin əli ilə etdilər...

İndi "çox rahatlıqla" özünüzü ifadə etdiyiniz məmləkətlərdə Azərbaycanı dağıtmaq, onu içindən laxlatmaq, dönüklərin əli ilə burada sabitliyi, əmin-amanlığı yox etmək üçün hansı planların cızıldığından xəbərdarıq. Bu gün Azərbaycanı dünyanın ən güclü dövlətinə çevirmək üçün gecəsini-gündüzünə qatan insanlara şər-

# SÖYMƏYƏ, YOXSA GƏZMƏYƏ QƏRİB ÖLKƏ?!

mahnıya, şeirə, bayatıya bir not, bir söz əlavə etmək paltara yamaq vurmaq kimi bir şeydir. Hər yaradılanın ilkinliyində İlahi bir iz, İlahi bir çeki var. Ona toxundunsa, o müqəddəslik itəcək və adiləşəcək.

Son zamanlar izlədiyim, azərbaycanlı olmadıqlarına içimdə şəkkşübhə qalmadığına özümü inandırdığım insanları müşahidə etdikdən sonra bir neçə kəlmə üçün yazının başlanğıcını fəlsəfəyə kökləndim. Və o fəlsəfə ki, bizə haradan gəlib, hara ge-

Axı o söyüşün ünvanı həm də Vətəndir. Heç bunu anladınızmı? Dövlətə, bayrağa, himnə dönüklük qanınızdadır ki, onu içimizdə yaşaya-yaşaya illər boyu biz bilmədik və sərhədi keçəndən sonra özünü biruzə verdi. "Mənim Vətənimdə azadlıq, demokratiya yoxdur",- deyib yaltaqlandığınız, yalmandığınız ağalarınızın dünyanı necə və hansı üsullarla dağıtdıqlarından, hər an can almağa hazır olan silahların, raketlərin ağzında demokratiya apardıqları ölkələrin aqibətindən xəbəriniz yoxdurmu? Acın böhtan atmaqla qazancınız artsa da, cibiniz dolsa da, siz bizim üçün də, elə ağalarınız üçün də bir heçsiniz. Yəni səsiniz gəlsə də, özünüz boy verə bilməzsiniz...

Gəzməyə deyil, "əl quzusu" olub söyməyə qərib ölkə axtaranlarla "Ölməyə Vətən yaxşı" deyənlərin, Vətən daşı olanların, mamır olub Vətən qayasında bitənlərin fərqini bu gün hamı yaxşı bilir.

*Hafiz Təmirov,*
*polis mayoru*

# FƏALİYYƏTİMİZ ŞAGİRDLƏRDƏ DƏ MARAQ DOĞURDU

**Abşeron Rayon Polis İdarəsinin və Veteranlar Şurasının üzvləri rayon ərazisindəki 4, 5, 9, 10 saylı, Məmmədli kənd və Digah qəsəbə tam orta məktəblərdə şagird və pedoqoji kollektivlə görüşlər keçiriblər.**



Görüşlərdə "Narkomaniya bəşəri bəladır", "Erkən nikah və onun fəsadları", "Dini radikalizmə qarşı mübarizə zamanın çağırışıdır", eləcə də "Azərbaycan Polisi 100. Fədakar xidmət nümunəsi" mövzularında şagirdlərə ətraflı məlumat verilib.

RPİ Veteranlar Şurasının sədri İsa İslamov qeyd edib ki, bu gün ölkəmiz dünya birliyində öz layiqli yerini tutub. Azərbaycanda keçirilən mötəbər tədbirlər sabitliyin layiqincə qorunmasının və davamlı inkişafın əyani təsdiqidir. O, Azərbaycanın hərbi qüdrətinin durmadan artdığını, möhtərəm dövlət başçımızın cəbhə bölgələrinə tez-tez səfərlər etməsini və hər dəfə hərbçilərlə, rayon ictimaiyyəti ilə keçirdiyi görüşlərin əhalidə ruh yüksəkliyi yaratdığını diqqətə çatdırıb. İ.İslamov sabahımızın qurucuları olan gənclərin onlara olan etimadı layiqincə doğrultmaları üçün vətənpərvərlik ruhunda tərbiyə olunmalarının əhəmiyyətindən danışıb.



Çıxışlarda hər bir gəncin, xüsusən də məktəblilərin narkomaniya və onun törətdiyi faciələr haqqında geniş məlumata malik olmaları xüsusi vurğulanıb. Qeyd edilib ki, narkomaniyanın qurbanlarına çevrilən gənclər bu yola məlumatsızlıqdan, iradələrinin zəifliyindən düşürlər. Əgər onlar gələcəkdə başlarına gələn müsibətlərdən xəbərdar olsalar, əlbəttə ki, vaxtında özlərini qorumağı çalışarlar.

Tədbirdə yetkinlik yaşına çatmayanların inzibati və cinayət qanunvericiliyində nəzərdə tutulmuş məsuliyyəti, eyni zamanda, yetkinlik yaşına çatmayanların hüquq və vəzifələri aspektində diskusiya xarakterli söhbətlər aparılıb.

Görüşlərin sonunda "Narkomaniyaya yox deyək" mövzusunda videoçarx nümayiş olunub.

*H.Zeyni*

# POLİS VETERANLARININ İŞTİRAKI İLƏ...

## *1200-dən artıq görüş keçirilib, 771 cinayət açılıb*

**İctimai asayişin mühafizəsi, cinayətkarlığın profilaktikası, cinayət hadisələrinin qarşısının alınması və açılmasında ərazi polis orqanlarının veteranlar şuralarının üzvləri öz layiqli töhfələrini verirlər.** Gənc əməkdaşların peşə vərdişlərinin artırılmasında, onlarda dövlətə, dövlətçiliyə, anda, xidməti vəzifə borcuna sədaqət hisslərinin formalaşdırılmasında, nizam-intizama və qanunçuluğa ciddi əməl edilməsi sahəsində ağsaqqal həmkarların rolu danılmazdır.

Daxili İşlər Nazirliyinin Veteranlar Şurası 2018-ci ilin birinci rübündə də səmərəli tədbirlər həyata keçirib. Veteranlar vaxtaşırı görülən işlər barədə hesabat verirlər.

Belə ki, gənc nəslin təlim-tərbiyəsində, milli ruhda formalaşmasında fəal iştirak edən polis veteranları cari ilin 3 ayında respublika üzrə təhsil müəssisələrində, həmçinin əhali ilə 1200-dən artıq görüş keçiriblər. Yerli polis şöbələrinin rəhbərliyi və aidiyyatı xidmətlərin əməkdaşları ilə birgə keçirilən belə görüşlərdə yeniyetmə və gənclər arasında anti-narkotik təbliğatın gücləndirilməsi, dini radikalizmə qarşı mübarizə, azyaşlılar arasında erkən nikah hallarının qarşısının alınması məqsədilə hüquqi mövzularda maarifləndirmə işləri aparılıb, dəyərli tövsiyələr verilib.

Polis veteranlarının köməyi ilə neçə-neçə cinayət törətmiş şəxs tutularaq istintaqa verilib, baş verə biləcək hüquqazidd əməllərin qarşısı alınıb. Beləliklə də, təkcə bu ilin ilk 3 ayı ərzində polis veteranları 771 cinayətin açılmasında iştirak ediblər.

Şura qarşıda duran vəzifələrin yerinə yetirilməsi istiqamətində tədbirlərini davam etdirir və veteranlar onlara göstərilən etimadı doğrultmağa çalışırlar.

*C.Natiq*

# QANUNSUZ DÖVRİYYƏDƏN ÇIXARILDI

**Respublikanın daxili işlər orqanları cinayətkarlığa, o cümlədən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərini uğurla davam etdirirlər.**

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində daxili işlər orqanları əməkdaşları tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində bu ilin ilk 3 ayı ərzində güclü təsiredici xüsusiyyətə malik olan, ümumi çəkisi 381 kiloqramdan artıq müxtəlif növ narkotik vasitə, o cümlədən 49 kiloqram heroin, 74 kiloqram tiryək, 249 kiloqram marixuana, 7,3 kiloqram həşiş və 2,3 kiloqram digər güclü təsiredici xüsusiyyətə malik narkotik vasitə götürülərək qanunsuz dövriyyədən çıxarılıb.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

*N.Cavadov,*
*polis kapitanı*

# ELAN

*Daxili İşlər Nazirliyi Azərbaycan Polisinin 100 illik yubileyi ilə əlaqədar daxili işlər orqanlarının fəaliyyətini işıqlandıran və tərənnüm edən nominasiyalar üzrə respublika müsabiqələri elan edir.*

**Müsabiqələrin mövzuları və keçirilməsi qaydaları**

1.Azərbaycan Polisinin yaranma tarixi və təşəkkülü;

2.Respublika daxili işlər orqanlarının sovet dönəmindəki fəaliyyəti və əldə etdiyi təcrübə. Milis əməkdaşlarının 1941-1945-ci illər müharibəsi dövründəki fədakar xidmətləri;

3.Azərbaycan Polisinin müstəqilliyin ilk illərində topladığı təcrübə. Hüquqi dövlət quruculuğu prosesində, ölkədə kriminogen vəziyyətin nəzarətə alınması, asayişin və sabitliyin bərpası və qorunması;

4.Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ilk günlərindən başlayaraq Azərbaycan Polisinin keçdiyi xidmət və döyüş yolu;

5.Ağır və xüsusilə ağır cinayətlərin açılmasında, dövlət çevrilişinə cəhdlərin qarşısının alınmasında, istintaqının aparılmasında polisin fədakar xidməti;

6.İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi maarifləndirilməsi istiqamətində polis əməkdaşlarının fəaliyyəti;

7.Azərbaycan Polisinin beynəlxalq əməkdaşlığı, beynəlxalq polis təşkilatları ilə əlaqələri;

8.Respublika Daxili İşlər Nazirliyində həyata keçirilən islahatlar, xidmətin müasir tələblər səviyyəsində təşkili. Ölkəmizdə asayişin daha müasir metodlarla qorunması üçün yaradılan yeni struktur təsisatları və onların informasiya texnologiyalarının tətbiqinə əsaslanan fəaliyyətinin nəticələri;

9.Polisin kadr özəyinin təkmilləşdirilməsində və daha da gücləndirilməsində xüsusi təyinatlı təhsil müəssisələrinin rolu;

10.DİN-in tibb müəssisələrində yeni texnologiyaların və elmi yeniliklərin tətbiqi;

11.Daxili işlər orqanları əməkdaşlarının fiziki hazırlığı. İdmançı əməkdaşların qazandıqları uğurlarda DİN-in İdman Cəmiyyətinin rolu;

12.Polisin ictimaiyyətlə əlaqələri.

**Müsabiqə “Ən yaxşı televiziya filmi (verilişi)”, “Ən yaxşı oçerk” və “Ən yaxşı mahnı” nominasiyaları üzrə keçirilir.**

**Təqdim olunan televiziya filmi (verilişi), hekayə və mahnıya verilən tələblər**

1.Müsabiqədə hər müəllif yalnız bir nominasiya üzrə iştirak edə bilər.

2.Təqdim olunan əsərlər müəyyən edilmiş mövzular üzrə olmalıdır.

3.Müsabiqə üçün hazırlanmış əsərlər Daxili İşlər Nazirliyində yaradılmış Xüsusi Komissiyaya təqdim olunmalıdır.

**Əsərlərin qəbul qaydaları**

1.Hər hansı televiziya kanalında yayımlanan televiziya filmi (verilişi), mahnı diskdə, oçerk dərc olunduğu mətbuat orqanından (qəzet, jurnal)- 1 nüsxə.

2.Əsərin elektron variantı (Arial (12) şriftində -CD diskdə) – 1 nüsxə.

3.Əsərin A4 formatda çap olunmuş variantı-mahnının partiturası

(Müəllifin imzası göstərilməməlidir) – 3 nüsxə.

**Tələb olunan sənədlər**

1.İştirakçı haqqında məlumat

2.Şəxsiyyət vəsiqəsi və surəti

3.Şəxsi VÖEN və surəti

4.Şəxsi bank rekvizitləri (şəxsi VÖEN əsasında açılmış bank hesabı və hesabın aktiv olması barədə bank tərəfindən təsdiq edilmiş sənəd)

Daxili İşlər Nazirliyinə təqdim edilmiş yazılar və sənədlər geri qaytarılmır.

**Müsabiqə 2018-ci il fevralın 28-də başlayır, mayın 30-da başa çatır.**

**Yaradıcılıq işləri hər gün (bazar günündən başqa) saat 10:00-dan 16:00-dək Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinə şəxsin özü tərəfindən təqdim olunmalıdır.**

Sənədlər tam olmadığı və ya həqiqəti əks etdirmədiyi hallarda əsər müsabiqəyə buraxılmır.

QEYD: **Regionlarda fəaliyyət göstərən yaradıcı şəxslər müsabiqəyə yazıları özləri və ya səlahiyyətli nümayəndələri vasitəsilə təqdim edə bilərlər.**

**Qiymətləndirmə meyarları**

-mövzunun əhatə olunması, araşdırma, əsaslandırma

-materialın tamaşaçı, dinləyici, oxucu üçün informasiya payı

-təqdim olunan əsərin dil və üslub xüsusiyyətləri, bədii-estetik səviyyəsi

-obyektivlik, qərəzsizlik, tərəfsizlik və məsuliyyət

-ictimai maraqların müdafiəsi

Əsərlər 10 ballıq sistem üzrə qiymətləndirilir, maksimum 50 bal müəyyən olunur.

**Müsabiqəyə təqdim olunmuş əsərlərin mükafatlandırılması**

Hər istiqamət üzrə 3 qalib müəyyən edilir:

I yer - 3000 AZN

II yer - 2000 AZN

III yer - 1000 AZN

**İştirakçı haqqında məlumat cədvəli (müəllif tərəfindən doldurulur):**

-Təqdim olunan əsərin mövzusu

-Müəllifin adı, soyadı, atasının adı

-Mətbuatda təxəllüsü (əgər varsa)

-İşlədiyi orqan, yaxud üzvü olduğu yaradıcılıq təşkilatı

**Ünvanı və poçt indeksi:**

iş telefonu

ev telefonu

mobil telefonu

elektron poçt ünvanı

**Ünvan: Bakı şəhəri, Azərbaycan prospekti 7**

**Əlaqə telefonları:(012) 590 98 10, (012) 590 20 25;**

**Elektron ünvan: metbuat@mia.gov.az**

**DİN-in əmri ilə Azərbaycan Polisinin 100 illik yubileyi ilə əlaqədar martın 15-dən aprelin 30-dək daxili işlər orqanlarının əməkdaşları arasında “Ən yaxşı polis sahə inspektoru”, “Ən yaxşı polis sahə rəisi”, “Ən yaxşı əməliyyat müvəkkili”, “Ən yaxşı təhqiqatçı”, “Ən yaxşı müstəntiq”, “Ən yaxşı tağım komandiri”, “Ən yaxşı polis nəfəri” müsabiqəsi keçirilir.**

**Nazirliyin orqan və hissələrinin rəisləri, nizami polis hissələrinin komandirləri xidmətdə fərqlənən, qüvvədə intizam tənbehi olmayan, aidiyyatı nominasiyalar üzrə yüksək peşə hazırlığına və xidmət sahəsi üzrə azı 3 il ümumi staja malik əməkdaşlar arasından ən layiqlisini seçib, onun barəsindəki xasiyyətnaməni xidməti, döyüş və fiziki hazırlıq göstəricilərini əks etdirən rəylə birlikdə Mərkəzi Müsabiqə Komissiyasına təqdim olunması üçün Baş Kadrlar İdarəsinə göndərməlidirlər.**

*Daxili İşlər Nazirliyi*

# KEÇMİŞİMİZ VƏ GƏLƏCƏYİMİZ

**YUNESKO-nun abidələrin və diqqətəlayiq yerlərin mühafizəsi məsələləri üzrə Beynəlxalq Şurasının 1983-cü ildə qəbul edilmiş qərarına görə, 18 aprel Abidələrin Mühafizəsi günü kimi qeyd olunur. Məqsəd dünya ictimaiyyətinin diqqətini maddi-mədəniyyət abidələrinin qorunmasına yönəltməkdir.**

Ölkəmiz dünyada bəşər sivilizasiyasının ilkin meydana gəldiyi ərazilərdən biridir. Arxeoloji qazıntıların nəticələri göstərir ki, Azərbaycanda yaşamış insanların tarixən keçdikləri keşməkeşli yollar qədim yaşayış məskənlərində və çoxsaylı abidələrdə öz əksini tapıb. Zamanın sərt sınaqlarına tab gətirərək bu günümüzə gəlib çatan bu abidələr hazırda çox qiymətli nümunələr kimi qorunur.

Ölkəmizin ərazisində Manna, daha sonralar cənubda Atropatena dövlətlərinin yaranması ilə bağlı şəhərlər salınıb, müdafiə tikililəri, əzəmətli qala divarları inşa edilib. Qafqaz Albaniyası dövründə şəhərsalma sahəsində də mühüm addımlar atılıb. Qəbələ şəhərinin möhkəm qala divarları, saxsı borularla çəkilmiş su kəməri, Dəmirqapı keçidində daşdan tikilmiş müdafiə sistemi, Çıraqqala, Ləkit kəndindəki dairəvi məbəd və digər yerlər şəhərsalma mədəniyyətinin yüksək səviyyəsini göstərir. Orta əsrlərə aid abidələr-Mömünə Xatun, Qarabağlar, Gülüstan, Bərdə türbələri, Şirvanşahlar sarayı, Şəki xan sarayı, Şuşa şəhərinin abidələri dünya memarlığının ən gözəl incilərindəndir.



Ermənistanın işğalı altında olan torpaqlarımızda 500-dək tarixi-memarlıq, 100-dən çox arxeoloji abidə, on minlərlə eksponatı olan 22 muzey, 4 rəsm qalereyası, 46 milyon kitab və əlyazma saxlanılan 927 kitabxana, 808 klub, 85 musiqi və incəsənət məktəb, 20 mədəniyyət sarayı, 4 dövlət teatrı qalmış, 1852 mədəniyyət və incəsənət abidəsi erməni vəhşiliyinin qurbanı olmuşdur.

Təkcə Şuşada 129 memarlıq abidəsi, o cümlədən Şuşa qalası, Xan, Qaxal mağaraları, Kəlbəcərdə Alban kilsəsi, Qalaboynu, Comərd, Keşikçi qalaları, Tağlıdaş körpüsü dağıdılmış, Tarix-diyarşünaslıq muzeyinin eksponatları talan edilmiş, Daş heykəllər muzeyi yerlə-yeksan edilmişdir.

Üzərlik təpə abidəsi, Xaçındərbənd kəndindəki Qutlu Sarı Musaoğlu günbəzi, Kəngərlidəki XIV əsrin yadigarı olan türbə və daş abidələr, Papravənddəki XVII əsrdən qalan Xanoğlu türbəsi, XVIII əsrə aid məscid və digər türbələr, Xan qızı Natəvanın və oğlunun şərəfinə tikilmiş 19-cu yüzilliyin türbəsi, Şahbulaq qalası kimi tarixi-memarlıq abidələri Ağdamın işğalı zamanı düşmən tərəfindən dağıdılıb, Çörək, Tarix-Ölkəşünaslıq muzeyləri və Ağdam Şəkil Qalereyası talan edilib.

Zəngilan, Laçın, Qubadlı, Cəbrayıl, Füzuli və Xocalı rayonlarının mədəni-tarixi abidələri də erməni vandallarının vəhşiliyinə məruz qalıb, məhv edilib.

Azərbaycan müstəqillik əldə etdikdən sonra tarixi abidələrə münasibət kökündən dəyişməyə başladı. Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan hökuməti arasında imzalanmış “Mədəni irsin qorunmasına yardım haqqında” sazişə uyğun olaraq, Bakıda Şirvanşahlar saray-kompleksində, Naxçıvanda Möminə xatun və Qarabağlar türbələrində, Şəki xanlarının saraylarında bərpa və yenidənqurma işləri aparılmışdır. 2002-ci ildə respublikamız Abidələrin Bərpası və Tətbiqi Beynəlxalq Mərkəzinə üzv qəbul olunmuşdur. Azərbaycan tarixində ilk dəfə olaraq, Şirvanşahlar saray-kompleksi və Qız qalası da daxil olmaqla İçərişəhər Dövlət Tarixi-memarlıq kompleksi, dünya əhəmiyyətli mədəni-tarixi abidələrimiz YUNESKO-nun siyahısına düşmüş, Azıx və Tağlar mağaralarında tapılmış maddi-mədəniyyət nümunələri dünyanın bir çox ünlü sərgilərində nümayiş etdirilmişdir.



Ulu öndərimizin və möhtərəm Prezidentimizin ali diqqət və qayğısı ilə ölkəmizin hər yerində onlarla dini-mədəni abidələr ən yüksək səviyyədə təmir və bərpa olunmuş, Heydər Əliyev Fondunun fəal iştirakı ilə tarixi abidələrimizin beynəlxalq ictimaiyyətə tanıdılması üçün böyük işlər görülmüşdür.

Qələbəmizdən sonra qiymətli və qədim tariximizin də qapıları bir daha dünyaya taybatay açılacaq.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# ÇEMPİON KOMANDİR

**Ramik Nəzərov Qusar Rayon Polis Şöbəsi Post-Patrul Xidmətinin komandiridir. 2015-ci ildən DİO-da xidmət edən 27 yaşlı polis leytenantı taekvondo ilə də məşğuldur.**

Uşaq yaşlarından idmana böyük həvəsi olub, ilk uğurlarını da məktəb illərində qazanıb. Regionlar arası yarışlarda gücünü sınayan Ramik 2003-cü ildə yeniyetmələr arası spartakiadanın qalibi olub.



Ali təhsilini Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında alan R.Nəzərov tələbəlik illərində bir çox beynəlxalq turnirlərdə iştirak edib, qələbələrinin sayını artırıb. Belə ki, 2011-ci ildə İsveç kubokunun sahibi olub. Yeri gəlmişkən, Ramik 2012-ci ildə Azərbaycan çempionatının qızıl medalını qazanıb.

II dan qara kəmər sahibi olan həmkarımız həm də idman ustasıdır. Daxili işlər orqanlarında xidmət edən idmançı əməkdaşlardan biri kimi o da idmana, gənclərimizin fiziki hazırlığına göstərilən diqqət və qayğıdan ruhlandığını, ölkəmizin idman şərəfinin layiqincə qorunması üçün səy və bacarığını səfərbər edəcəyini deyir.

*A.Natiq,*
*H.Nizam*

# BAKI ŞƏHƏR BAŞ POLİS İDARƏSİNDƏN

Aprelin 14-də özünü Demokratik Qüvvələrin Milli Şurası adlandıran quruma daxil olan partiya və birliklərin Yasamal rayonundakı idman-sağlamlıq kompleksinin stadionunda Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmış mitinqi keçirilib.

Saat 15:00-dan 17:00-dək davam edən toplantıda Azərbaycan Xalq Cəbhəsi, Müsavat və Azərbaycan Xalq partiyalarının, Müsəlman Birliyi, “NİDA” hərəkatlarının, eləcə də müxalifətyönümlü bir sıra qeyri-hökumət və gənclər təşkilatlarının ümumi sayı 1000 (min) nəfərədək olan üzvü və təəssübkeşi iştirak edib.

İctimai asayişin və hüquq qaydasının kobud şəkildə pozulması halları qeydə alınmayıb.

*14 aprel 2018-ci il*

# MARAQ DÜNYASI



### GƏLƏCYİMİZ ÜÇÜN

Evlərində zəngin kitabxana olan uşaqlar gələcəkdə daha savadlı və ağıllı olurlar. Bu qənaətə ispan alimləri apardıqları araşdırmalar zamanı gəliblər. Belə ki, evində ən azı 500 kitab olan uşaq daha mədəni atmosferdə böyüyür və daha zəngin dünyagörüşə sahib olur. Kitaba meyilli uşaqlar müasir qadjetlərdən uzaq olurlar ki, bu da onların əsəb sisteminə müsbət təsir edir.

Təhsil alanların bilik səviyyəsini ölçən PİSA-nın (Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramı) apardığı araşdırmalarda göstərib ki, 15 yaşlı uşaq ildə azı 11 kitab oxuyarsa, keçirilən testlərdə minimum 423 bal toplayar. PİSA sorğusunda hər 40 bal bir təhsil ilinin hər fənn üzrə ümumi nəticələrinə bərabər ölçülür.

### TATUİROVKALI... MUMİYALAR

Britaniya Muzeyinin məlumatına görə, tədqiqatçılar beş min illik tarixi olan iki qədim Misir mumiyasında tatuirovka aşkar ediblər. Kişi mumiyanın qolunun yuxarı hissəsində vəhşi öküz və qoç rəsmi, qadın mumiyanın qolunda və çiyin nahiyəsində naxışlar işlənilib.

Oksford Universitetinin Şərq tədqiqatları fakültəsinin mütəxəssisləri tatuirovkaları üzə çıxarmaq üçün kompüter tomoqrafiyasının imkanlarından istifadə ediblər. Müasir texnologiyaların son nailiyyətlərindən olan “3D” fotoşəkillər tatuirovkaları daha aydın göstərir.

Min il bundan əvvəl Afrikanın şimalında insanların bədənlərində tatuaj edilmiş müxtəlif rəsmlərin aşkar edilməsi elmin ayrı-ayrı sahələrində aparılan tədqiqatlara da töhfə verə bilər. Ən müasir texnologiyaların köməyi ilə tarix, etnoqrafiya, biologiya, zoologiya və tibb sahələrində aparılan araşdırmalar üçün yeni faktlar əldə etmək mümkündür.

Gebelein yaşayış məntəqəsində aşkar edilmiş “Gebelein Man” adlı mumiya Misirin ilk fironlarının hakimiyyətindən də əvvəlki dövrə aiddir. O da müəyyən edilib ki, bu gənc kürək nahiyəsinə vurulmuş bıçaq zərbəsindən həlak olub.



Mumiyalarda aşkar edilmiş tatuirovkalar heç də dünyada ən qədim tatuaj nümunələri deyil. İlk tatuirovka 5300 il əvvəl yaşamış və “Otzi” adı verilmiş insanın 1991-ci ildə Alp dağlarının İtaliya ərazisində tapılmış mumiyalanmış cəsədində üzə çıxarılıb.

### TAXTADAN...GÖYDƏLƏN

Yaponiyanın “Şumitomo Forestry” şirkəti taxtadan 350 metr hündürlükdə 70 mərtəbəli göydələni 2041-ci ildə paytaxtın Marunoçi işgüzar rayonunda inşa edəcək. Binanın konstruksiyasında zəlzələyə qarşı müqaviməti artıran poladdan da istifadə olunması nəzərdə tutulur. Buna qədər Yaponiyada taxtadan inşa edilən ən hündür tikili 7 mərtəbəli olub.



Təxminən 455 min kvadratmetr sahəni əhatə edəcək yeni göydələn çoxfunksiyalıdır. Burada mağazalar, ofislər, mehmanxana və mənzillər olacaq. Tikilinin ümumi dəyərinin 5,5 milyard dollar təşkil edəcəyi bildirilir. Göydələnin inşası üçün ümumilikdə 185 min kubmetr taxta sərf olunacaq.

Hazırda şirkət tikintidə istifadə etmək üçün üç saat ərzində oda davam gətirə biləcək ağac növünü hazırlayır. Bununla yanaşı, göydələndə oda qarşı davamlı bitkilərin yerləşdirilməsi də nəzərdə tutulur.

*Çingiz Şıxverdiyev*

# YUBİLEYƏ HƏSR OLUNUB

**Aprelin 14-də Azərbaycan Polisinin 100 illik yubileyinə həsr olunmuş cüdo üzrə DİN çempionatı keçirilib.**

Açılış mərasimində çıxış edən DİN İdman Cəmiyyətinin sədri, Olimpiya, dünya və Avropa çempionu, polis polkovniki Zemfira Meftaxetdinova Azərbaycan Polisinin ulu öndər Heydər Əliyevin dövlətçilik xəttinə, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müdrik siyasətinə həmişə sadiq olduğunu bildirib və bunun daxili işlər orqanlarının əməkdaşları üçün ən böyük şərəf və qürur mənbəyi olduğunu diqqətə çatdırıb. O, ölkəmizin sarsılmaz təməllər üzərində formalaşmış ictimai-siyasi sabitlik şəraitində, inkişafında, dövlətçiliyin qorunmasında, asayişin mühafizəsində, Konstitusiya ilə təsbit olunmuş insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatında daxili işlər orqanlarının mühüm xidmətlərindən danışıb, ölkə rəhbərliyinin daxili işlər orqanlarına diqqət və qayğısını vurğulayıb. Qeyd edilib ki, müstəqillik illərində əldə etdiyi yüksək nəticələrlə ölkəmiz hazırda MDB məkanında, həmçinin Şərqi Avropa bölgəsi üzrə cinayətlərin sayının azlığı, sabitliyin etibarlı təminatı baxımından ən yaxşı göstəriciyə malik dövlətdir.

Elə yüz yaşı olan cüdo Yaponiyada yaranıb və bu gün dünyada ən populyar idman növlərindəndir. Olimpiya Oyunları



proqramına da daxil edilib.

DİN İdman Cəmiyyətində keçirilən bu yarışda ərazi polis orqanları, nizami hissə və tədris müəssisələrini təmsil edən ümumilikdə 10 komandadan 80 idmançı qələbə uğrunda mübarizə aparıblar.

Gərgin keçən yarışlarda iştirakçılar arasında qaliblər müəyyənləşib. Komanda birinciliyində ilk üçlükdə Əlahiddə Çevik Polis Alayı, DİN Daxili Qoşunlarının Baş İdarəsi və Polis Akademiyasının əməkdaşları qərarlaşıblar.

Müvafiq olaraq öz çəki dərəcələrində güclərini sınayan K.Məmmədli (62 kiloqram, DQ), R.Diniyev (66 kiloqram, PA), F.Mikayılov (73 kiloqram, Gəncə ŞBPİ), A.Fətullayev (81 kiloqram, ƏÇPA), H.Cəbiyev (90 kiloqram, ƏÇPA), K.Abdullaxanlı (100 kiloqram, BMİ) və A.Mehrəliyev (+100 kiloqram, ƏÇPA) yarışın baş mükafatını qazanaraq çempion olublar.

Yarışların idarə olunmasında polis polkovnik-leytenantları Elnur Həsənov, Seymur Qurbanbəyov və polis kapitanı Əlişan Tunc iştirak ediblər.

Mükafatlandırma mərasimində çıxış edən İdmanın təşkili bölməsinin rəisi, polis polkovnik-leytenantı Mülayim Xıdırov əməkdaşların hazırlıq səviyyəsinin yüksək olmasını, polis idmançılarımızın ildən-ilə təcrübələrinin artdığını diqqətə çatdırıb.

Sonda qaliblərə medallar, diplomlar və qiymətli hədiyyələr təqdim olunub.



*Zeyni Hüseynov, polis serjantı*

# ELAN

## DAXİLİ İŞLƏR ORQANLARI ƏMƏKDAŞLARININ NƏZƏRİNƏ!



Azərbaycan Respublikası daxili işlər orqanları əməkdaşlarının mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə Nərimanov rayonu, 2036-cı məhəllədə (Ziya Bünyadov prospektində, «Koroğlu» metrostansiyasının yaxınlığında) kooperativ yolu ilə tikilən 13 mərtəbəli yaşayış binasında ***ilkin ödəniş 50 faiz olmaqla, 1 il müddətinə 1 kvadratmetri heç bir faiz tutulmadan 900 manata 1, 2, 3, 4 otaqlı mənzillər təklif edilir.***

**Mənzillərin sahələri:**

1 otaqlı – 70.63, 72.93 kvm;
2 otaqlı – 88.17, 89.21 kvm;
3 otaqlı – 152.72 kvm;
4 otaqlı – 177.18 kvm.

Həmin binada mənzil almaq istəyən əməkdaşlar DİN-in Maddi-Texniki Təminat Baş İdarəsinin Əsaslı Tikinti İdarəsinə **(tel: (012) 408-81-25)** müraciət edə bilərlər.

**Qeyd: Mənzillərin dəyəri tikintinin sonuna qədər hissə-hissə ödənilməlidir.**

# PAYTAXT SAKİNLƏRİNİN MANEƏSİZ HƏRƏKƏTİ ÜÇÜN

**Aprelin 27-29-da Bakının mərkəzi küçələrində keçiriləcək "Formula 1 Azərbaycan Qran-Pri"si ərəfəsində tamaşaçıların trekə, Dənizkənarı Bulvarda yerləşən "F1 Şəhərciyi"nə və bilet aldıqları tribunalara asan şəkildə yaxınlaşmasını təmin edəcək ictimai nəqliyyat vasitələri müəyyənləşib. Yarış ərəfəsində Bakının mərkəzi küçələrində nəqliyyatın fasiləsiz hərəkətini təmin etmək məqsədilə hazırlanan Nəqliyyatın İdarə Olunması Planına əsasən, trekin yaxınlığından keçən 65, 5 və 53 nömrəli avtobuslar saat 06:00-dan 04:00-dək, metronun "28 May" və "İçərişəhər" stansiyaları isə 06:00-dan 02:00-dək xidmət göstərəcək.**




Yarış həftəsi ərzində şəhər sakinlərinin maneəsiz hərəkətini təmin etmək üçün trek ərazisində yerləşən daimi yeraltı keçidlər günboyu açıq olacaq, həmçinin piyadalar trekin müəyyən yerlərində qurulacaq müvəqqəti yerüstü keçidlərdən istifadə edə biləcəklər. Bütün küçələrdə nəqliyyatın hərəkətinə nəzarət Dövlət Yol Polisi tərəfindən həyata keçiriləcək.

Nəqliyyatın hərəkətinin qadağan olunduğu ərazilər üç zonaya ayrılır. Birinci zonaya trekin əhatə etdiyi İçərişəhər, ikinci zonaya Azadlıq meydanı və onun yaxınlığında yerləşən digər ərazilər aiddir. Üçüncü zona isə BMT-nin 50 illiyi küçəsini əhatə edir. Əlaqədar qurumlar tərəfindən bu ərazilərdə yaşayan sakinlərə, kirayənişinlərə və işgüzar fəaliyyətlə məşğul olanlara bütün zonalara giriş üçün eyni icazə sənədi təqdim olunacaq. İcazə sənədi yalnız "Formula 1 Azərbaycan Qran-Pri"si zamanı yol məhdudiyyətlərinin tətbiq edildiyi müddət (aprelin 23-dən mayın 1-dək) üçün etibarlıdır. İcazə sənədini aprelin 12-dən 23-dək "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, 4 və 58 saylı Mənzil Kommunal İstismar sahələrindən almaq mümkündür.

Qeyd edilib ki, icazə sənədi nəqliyyat vasitəsinin ön şüşəsinin sağ tərəfinin aydın görünən aşağı hissəsinə yerləşdirilməlidir. İtirilmiş, oğurlanmış və ya yararsız hala düşmüş sənəd yenisi ilə əvəz olunmayacaq. Yarış ərəfəsində yalnız icazə sənədinə sahib nəqliyyat vasitələri bu zonalara buraxılacaq və onların istənilən zonaya daxil olmasına icazə veriləcək.

Birinci və ikinci zonalarda nəqliyyatın hərəkətinə ancaq gecə vaxtı 00:00-dan 06:00-dək icazə veriləcək. Üçüncü zonada isə nəqliyyatın hərəkətinə gün ərzində giriş imkanı olacaq. İcazə sənədi olan avtomobillər istənilən vaxt bu zonaya daxil ola biləcək. Birinci zonaya giriş Azneft dairəsi, ikinci zonaya giriş Rəşid Behbudov küçəsi, üçüncü zonaya giriş Lermontov küçəsi (Şəlalələr parkı) tərəfdən olacaq.

Bu il konsert və əyləncə proqramlarının "Baku Crystal Hall"da keçirilməsi ilə əlaqədar Azneft dairəsindən Dövlət Bayrağı Meydanına qədər yolda nəqliyyatın hərəkəti məhdudlaşdırılacaq və yalnız yuxarıda qeyd olunan icazə sənədinə sahib nəqliyyat vasitələri bu əraziyə buraxılacaq.

*Çingiz Şıxverdiyev*

Tokioda Kibercinayətkarlıqla Vahid Mübarizə Mərkəzi öz işinə başlayıb. Mərkəz Şəhər Polis İdarəsinin bazasında fəaliyyət göstərəcək. Yeni strukturda 500 müstəntiq və analitik işləyəcək.

Virtual məkanda cinayətlər üzrə ekspertlər polis və digər təhlükəsizlik xidmətlərinin müxtəlif bölmələrində yerləşdirilib.

"Kiodo" İnformasiya Agentliyinin məlumatına əsasən, 2017-ci ildə Yaponiyada kompüter informasiyası, o cümlədən şəxsi məlumatların oğurlanması ilə bağlı üç milyondan çox fakt qeydə alınıb.

*****

***Rusiya Daxili İşlər Nazirliyi ölkədə keçiriləcək futbol üzrə dünya***

## DÜNYAYA PƏNCƏRƏ

***çempionatının oyunlarına narkotik maddələrin keçirilməsinə icazə verib. Mundialın Təşkilat Komitəsi ilə birgə hüquq-mühafizə orqanlarının əməkdaşları insanların stadionlara qadağan olunmuş maddələrlə buraxılması üçün xüsusi qayda müəyyənləşdirib.***

***DÇ-2018-də azarkeşlər əllərində resept olmaq şərti ilə dərman preparatları, narkotik və psixotrop maddələrlə stadionlara daxil ola bilərlər. Dərman siyahısı rus və ingilis dillərində təqdim olunmalıdır.***

***Qeyd edək ki, dünya çempionatı iyunun 14-dən iyulun 15-dək keçiriləcək.***

*****

Rusiyada yol polisi qayda pozan sürücüləri müasir texnologiyaların köməyi ilə aşkarlayır. Düz xəttin tələbini kamera olmayan ərazidə pozan sürücünü pilotsuz uçan aparat (PUA) izləyir və şəklini, videosunu çəkir.

*****

***Çin Xalq Respublikasında ötən il 361 polis əməkdaşı xidməti vəzifəsini yerinə yetirərkən həlak olub. Bu barədə ölkənin İctimai Təhlükəsizlik Nazirliyi məlumat yayıb.***

***Vəzifə başında vəfat edən polislərin ailələrinə ödənilən təqaüdlərin məbləği artırılıb. Həmçinin asayiş keşikçilərinin gərgin fəaliyyətini nəzərə alan hökumət onlara ödənilən tibbi sığortanın və polis övladlarına göstərilən müxtəlif maddi dəstəyin miqdarını çoxaldıb.***

*****

Vaşinqtonda mobil telefonların yerini müəyyənləşdirən, zəngləri və ismarıcları ələ keçirə bilən casus ləvazimat dəsti aşkarlanıb.

ABŞ-ın Daxili Təhlükəsizlik Departamentinin məlumatına görə, mənşəyi məlum olmayan "skatların" xarici casuslar və ya mütəşəkkil cinayətkar dəstə tərəfindən istifadə olunduğu güman edilir. Cihazın paytaxtın mobil şəbəkəsində "anomal aktivliyə" yol açdığı bildirilir.

"Stingrays" tipli cihazlar mobil rabitə qüllələrinin funksiyalarını yerinə yetirə bilir. Çanta ölçüsündə olan cihaz göndərdiyi siqnallarla mobil telefonların yerini və içində olan məlumatları müəyyənləşdirir.

ABŞ administrasiyası ilk dəfədir ki, Vaşinqtonda casus ləvazimatlarından istifadə olunduğunu təsdiq edib. Daxili Təhlükəsizlik Departamenti sözügedən cihazların kimə aid olduğunu araşdırır.

*****

***Türkiyənin Diyarbəkir şəhərində polisin həyata keçirdiyi əməliyyat-axtarış zamanı 700 kiloqram narkotik vasitə ələ keçirilib. Narkotik Diyarbəkirin Silvan yolunda bir avtomobildə aparılan yoxlama zamanı aşkarlanıb. Hadisə ilə bağlı 3 nəfər həbs olunsa da, hələlik əldə keçirilən narkotikin kimə məxsus olduğu açıqlanmır.***

*Natiq Cavadov*

## Aprelin 11-dən 17-dək olan müddət ərzində...

- Respublikanın daxili işlər orqanları tərəfindən 648 cinayət qeydə alınmış, onların 119-u «isti izlər»lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 45 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 144 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 11 nəfər, borclu şəxs qismində axtarışda olan 82 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 30 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 14 nəfər ölmüş, 49 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 53 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 151 nəfər saxlanılmışdır.

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti Cəbrayıl RPŞ-nin rəisi Araz Şahverdiyevə əzizi

**ASTAN ŞAHVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Maddi-Texniki Təminat Baş İdarəsi Əsaslı Tikinti İdarəsinin rəisi Rahib Məmmədov və şəxsi heyəti iş yoldaşları Rauf Əliyevə əzizi

**İLHAM HÜSEYNOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN İdman Cəmiyyətinin sədri Zemfira Meftaxetdinova və şəxsi heyəti Hafiz Təmirova əzizi, polis veteranı

**ŞÖLƏT TƏMİROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nizami RPİ-nin rəisi Ədalət Abbasov və şəxsi heyəti iş yoldaşları Ömər Məmmədova həyat yoldaşı

**FLORA xanımın**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

NBPİ Dəmiryol Nəqliyyatında Polis İdarəsinin rəisi Yaşar Nuriyev və şəxsi heyəti Gəncə XPŞ-nin rəisi Şadəm Hüseynova anası

**ZİLHƏCCƏ xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ehsan Zahidov, Orxan Mansurzadə BDYPİ-nin Gəncə Regional İmtahan-Qeydiyyat və Texniki Baxış Şöbəsinin əməkdaşı Eldar Əliyevə atası

**SƏMƏD ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Lənkəran ŞRPŞ-nin rəisi İslam Hümbətov və şəxsi heyəti Araz Şahverdiyevə əzizi

**ASTAN ŞAHVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yevlax RPŞ-nin rəisi Vaqif Müslümov və şəxsi heyəti Araz Şahverdiyevə əzizi

**ASTAN ŞAHVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Goranboy RPŞ-nin rəisi Fəqan Azadəliyev və şəxsi heyəti Araz Şahverdiyevə əzizi

**ASTAN ŞAHVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəmkir RPŞ-nin rəisi Cəmil Əmirov və şəxsi heyəti Araz Şahverdiyevə əzizi

**ASTAN ŞAHVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ucar RPŞ-nin rəisi Eldar Paşayev və şəxsi heyəti Araz Şahverdiyevə əzizi

**ASTAN ŞAHVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağcabədi RPŞ-nin rəisi Məhəmməd İbrahimov və şəxsi heyəti Araz Şahverdiyevə əzizi

**ASTAN ŞAHVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Füzuli RPŞ-nin rəisi Xəqani Məmmədov və şəxsi heyəti Araz Şahverdiyevə əzizi

**ASTAN ŞAHVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neftçala RPŞ-nin rəisi Vüsal Şəbəndiyev və şəxsi heyəti iş yoldaşları

**RZA NİFTƏLİYEVİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Laçın RPŞ-nin rəisi Adil Əsədov və şəxsi heyəti Araz Şahverdiyevə əzizi

**ASTAN ŞAHVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Biləsuvar RPŞ-nin rəisi Əlyəddin Səfərov və şəxsi heyəti Araz Şahverdiyevə əzizi

**ASTAN ŞAHVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağdam RPŞ-nin rəisi Elçin Qasımov və şəxsi heyəti Araz Şahverdiyevə əzizi

**ASTAN ŞAHVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xocavənd RPŞ-nin rəisi Yadigar Hüseynov və şəxsi heyəti Araz Şahverdiyevə əzizi

**ASTAN ŞAHVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kəlbəcər RPŞ-nin rəisi Haxverdi Əkbərov və şəxsi heyəti Araz Şahverdiyevə əzizi

**ASTAN ŞAHVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şuşa RPŞ-nin rəisi İlqar Rüstəmli və şəxsi heyəti Araz Şahverdiyevə əzizi

**ASTAN ŞAHVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zəngilan RPŞ-nin rəisi Ənvər Həsənov və şəxsi heyəti Araz Şahverdiyevə əzizi

**ASTAN ŞAHVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Cəbrayıl RPŞ-nin şəxsi heyəti Şöbə rəisi Araz Şahverdiyevə əzizi

**ASTAN ŞAHVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.298
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 18:00